# Sözün heyrəti

Əli Rza Xələfli imzasını yəqin ki, ölkəmizin ədəbi aləmində tanımayan az adam tapılar. Mənim isə onunla tanışlığımın əsrin dörddə birindən də uzun bir tarixçəsi var. İlk tanışlığımız "Həyat" (keçmiş "Sovet kəndi") qəzetinin redaksiyasında başlanıb. Ötən əsrin 90-cı illərinin axırları idi. O illərdə Qarabağın və ətraf rayonların işğalı səbəbindən Əli Rza Xələfli də öz doğma Cəbrayılından didərgin düşmüşdü. Günlərin bir günü də mənim çalışdığım qəzetdə işə başlamışdı. Ovaxtdan da onun ədəbi fəaliyyətinin canlı şahidinə çevrilmişdim. Mən də erməni işğalına məruz qalmış Kəlbəcər rayonundan olduğumdan tale bizi dərddaş eləmişdi. İlk tanışlıqdan söhbətimiz də tutmuşdu. Ötən günlərin həsrəti ilə qovrulduğumuzdan vaxtaşırı dərdləşir, ağrılarımızı bölüşürdük.

İşğala qədər Əli Rza Xələfli Cəbrayılda orta məktəbdə müəllim, sonralar isə rayon qəzetində ədəbi işçi, şöbə müdiri və s. müxtəlif vəzifələrdə çalışmışdı. Mən onu tanıyanda artıq bişmiş qələm sahibi idi. Geniş mütaliəsi və zəngin dünyagörüşü istənilən mövzuda qələmə aldığı yazılarında da özünü əks etdirirdi. Lakin onun istedadlı bir publisist və geniş erudisiyalı şair kimi parlamasında əsas vəsilə özünün yaratdığı və bu gün də uğurla yayımını davam etdirdi "Kredo" qəzetində baş verdi.

Ədəbiyyat araşdırıcıları hesab edirlər ki, Mirzə Cəlil "Molla Nəsrəddin"i yaratdı, "Molla Nəsrəddin" də Mirzə Cəlili, Sabiri və digər "molla nəsrəddinçiləri". Müqayisə nə qədər yerinə düşür, deyə bilmərəm, ancaq cəsarətlə deyirəm ki, Əli Rza Xələfli "Kredo"nu yaratdı, "Kredo" da Əli Rza Xələflini. Ədibin, sənətkarın formalaşmasında istedad, savad nə qədər vacib amildirsə, qələm adamının parlamasında ədəbi tribuna o qədər də mühüm şərtdir. Beləcə, Əli Rza Xələfli - "Kredo" tandemi uğurlu alındı və bu qoşa qanadlı ədəbi tribuna artıq iyirmi ildən çoxdur ki, söz aləmində öz uçuşunu davam etdirir.

Söz adamlarının hər birinin fərqli yazı maneraları, vərdişləri olur. Kimisi gecələr yazır, gündüz dincəlir, kimisi makinada işləyir, başqa biri qələmlə, kağızla, kimisi də yeni texnologiyaların imkanından yararlanır. Əli Rza Xələflinin özəlliyi ondadır ki, o yazılarını qələmə almadan birbaşa diktə eləyir. Təbii ki, bu sayaq yaradıcılıqla məşğul olmaq üçün söz adamı o qədər hazırlıqlı, savadlı və ilhamlı olmalıdır ki, yaratdığı bədii, poetik fikirlər arasında həm ardıcıllığı, əlaqəni, lakonikliyi, lirizmi və digər bədii vasitələri qoruyub saxlaya bilsin. Bu baxımdan Əli Rzanın yaradıcılığını Allahın verdiyi bir vergisi hesab etmək olar.

Sovet vaxtında ədəbi tənqidimizdə daim dövriyyədə olan belə bir deyim vardı: "filankəs məhsuldar yazıçıdır". İllər öncə bu yanaşma məndə çox da müsbət emosiyalar oyatmırdı. Əksinə, hesab edirdim ki, bu cür müqayisə yazıçını, şairi bir növ təqvim "izləyicisinə" çevirir. Həm də mənim anlamımda bu fikirdən ilk baxışda ədəbi düşüncədən çox, istehsalat qoxusu gəlirdi. Axı yazıçı yazdıqlarının həcminə görə yox, dəyərinə, yaratdıqlarının bədii siqlətinə görə qiymətləndirilməli idi. Yaşlı nəsil yaxşı xatırlayır ki, sosialist realizminin elə o zamanlar müəyyən etdiyi dəmir ideoloji çərçivə müstəvisində bu ruhda saysız-hesabsız əsərlər yaranırdı və bu siyasət çox vaxt qələm adamınıdaha yaxşı yazmaqdan çox, daha çox yazmağa şirnikləndirirdi. Bu xəstəlik poeziyada daha vulqar şəkildə özünü büruzə verirdi. Bəzən maddiyyat hərisliyi sənətkarlıq yanğısını da üstələyirdi. Belə ki, müəyyən ədəbi titullara sahib olan şairlər hər sətir hesabı üçün qonorar aldıqlarından, daha çox sərbəst şeirin "imkanlarından" qədərincə "bəhrələnməyə" can atırdılar. Hətta bir şeirdə hər sətirdə bir söz işlətməklə alacaqları pulun "şirinliyinə" qapılaraq bəzən mətləbi o qədər uzadırdılar ki, haşiyə gəlib mətni üstələyirdi. Bu zaman forma, janr tələbləri də heç yada düşmürdü. Ancaq illər keçdikcə müşahidələrim məndə başqa bir qəti mövqeni də möhkəmləndirdi ki, əsl bədii əsər mənəvi ehtiyacdan yarandığından istedadlı və ilhamlı qələm adamları içlərində qaynayan atəşi elə o sürətlə də yazıya köçürməsələr rahatlıq tapa bilməzlər. Ədəbi proses həm də bir vərdiş məsələsidir və yazıçı hər gün nə isə yazmasa tənbəlləşə bilər. Günümüzdə isə qonorar məsələsi birdəfəlik dövriyyədən çıxdığından indi özünü ədəbiyyata fəda edənləri əsl qəhrəman hesab etmək olar.



Əli Rza Xələflinin yaradıcılığını birqütblü qiymətləndirmək düzgün yanaşma olmazdı. Çünki o, demək olar ki, bədii ədəbiyyatın bütün janrlarında və növlərində ədəbi yaradıcılıqla məşğul olur. Onun nəsri ilə nəzm yaradıcılığı arasında da qəti bir sərhəd müəyyənləşdirmək çətindir. Əli Rza nə qədər nasirdisə, bir o qədər də şairdir. Publisistikası da heç bu iki qoldan geridə qalan deyil.

Əli Rza Xələflinin indiyədək çap olunmuş əsərlərinin adını sıralamağa zaman lazımdır. Onun nəsri, poeziyası, publisistikası haqqında yazılan kitablar da çoxdur. Respublikanın tanınmış ədəbiyyatşünasları, tənqidçiləri, digər ədəbiyyat adamları ədibin yaradıcılığının müxtəlif məziyyətləri haqqında çox sayda məqalə, resenziya, monoqrafiya və kitab qələmə almışlar. Nəriman Mahmudun yazıçının aforizmləri və hikmətli fikirləri müstəvisində yenicə qələmə aldığı "Heyrətin çağırışı" kitabı ədibin yaradıcılığına yeni bir baxışdır.

Müəllifin də qeyd etdiyi kimi, ədəbi janrlar içərisində daha çox öz lakonikliyi ilə seçilən aforizmlərdə xalq yaradıcılığının hikmət dolu ən dərin qatlarını izləmək olur. Aforizmləri şifahi xalq ədəbiyyatından fərqləndirən başlıca xüsusiyyət isə onların müəllifinin məlum olmasıdır. Elə Nəriman Mahmud da Əli Rza Xələflinin əsərlərini bu müstəvidə ələkdən keçirir, nəsrində və poeziyasında rast gəldiyi aforizmlərin məna yükünü, bədii-estetik gözəlliyini oxucu diqqətinə çatdırır.

Klassik aforizmlər əsasən dərin elmi-fəlsəfi, həyati məna yükü olan dolğun fikirlərdən, həm də əsasən nəsrlə yaradılmışdır. Əli Rza Xələflinin aforizmlərinin bir özəlliyi və gözəlliyi də ondadır ki, o, ana dilimizin imkanlarından ustalıqla yararlanaraq öz poetik deyimlərində də ibrətamiz aforizm nümunələri yarada bilmişdir:

Yurdu sevən əsgərin
Elə özü vətəndi.
Toxumdu dayaz, dərin,
Öz bağrından bitəndir.

Nəriman Mahmud Əli Rza Xələflinin poeziya nümunələrində, romanlarında, povestlərində, ən yığcam yazılarında belə, məqamında qaynar ilhamından doğmuş aforizmləri yenidən dövriyyəyə gətirməklə onların bədii-estetik dəyərini bir daha oxucuların gözləri önündə sərgiləyir.

Kitabın axırında ədibin bədii əsərlərindən topladığı aforizmləri ayrıca başlıqlar altında təqdim edən müəllif toplunu daha da oxunaqlı edir.Kitabı oxuduqca əmin olursan ki, müəllif obyekti dərindən öyrənmiş, yazıçının əsərlərindən seçdiyi nümunələrlə öz fikirlərini daha da möhkəmləndirmişdir. Bir sözlə, müəllif qarşıya qoyduğu məqsədə uğurla nail olmuşdur. Cəsarətlə demək olar ki, Nəriman Mahmudun "Heyrətin çağırışı" kitabı ədəbiyyatsevərlər tərəfindən maraqla qarşılanacaq, Əli Rza Xələflinin ədəbi-fəlsəfi, bədii-poetik dünyasının qavranılmasında oxuculara yeni bir ipucu verəcək.

***İlham* Məmmədli**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent***